## AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 07.09.2016 |
| Qeydiyyat nömrəsi | 1617050000011400 |
| Adı | Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 23.09.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.030.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201609071400 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 22.09.2016 |

"2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"nin 17-ci hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyası

QƏRARA ALIR:

1. "Bəyannamələrin kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Nümunəvi vergi ödəyicisinin müəyyən edilməsi və imtiyazların verilməsi Qaydaları" təsdiq edilsin (3 nömrəli əlavə).

4. "Elektron auditin keçirilməsi Qaydaları" təsdiq edilsin (4 nömrəli əlavə).

5. “Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması (Outbound Call Centre) Qaydaları” təsdiq edilsin (5 nömrəli əlavə).

6. “Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi Metodologiyası” təsdiq edilsin (6 nömrəli əlavə).

7. “Borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi Qaydaları” təsdiq edilsin (7 nömrəli əlavə).

8. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 24.12.2012-ci il tarixli 1217050000004800 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

8.1. 16 nömrəli “Fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.2. 17 nömrəli “Hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.3. 20 nömrəli “Fiziki şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.4. 21 nömrəli “Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur).

9. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq baş idarəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

10. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət baş idarəsinə tapşırılsın ki, bu Qərarla təsdiq edilmiş normativ hüquqi aktların Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

11. Bu Kollegiya Qərarının 4-cü hissəsi ilə təsdiq edilmiş “Elektron auditin keçirilməsi Qaydaları” 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

Vergilər naziri,
1-ci dərəcəli dövlət vergi xidməti müşaviri — Fazil Məmmədov

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 7 sentyabr 2016-cı il tarixli 161705000011400 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 5

Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması (Outbound Call Centre)

Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. "Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması (Outbound Call Centre) Qaydaları" "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamının 2.7-ci bəndinin icrası məqsədi ilə hazırlanmışdır.

1.2. Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması bu Qaydalara və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"na uyğun təşkil edilir.

1.3. Bu Qaydalarla müəyyən edilmiş risk qrupları üzrə vergi ödəyicilərinin məlumatlandırılması Vergilər Nazirliyinin Çağrı Mərkəzinin mövcud resursları çərçivəsində həyata keçirilir.

1.4. Vergilər Nazirliyinin Çağrı Mərkəzi funksiyalarını Vergilər Nazirliyi yanında Çağrı Mərkəzi Departamenti (bundan sonra-Departament) həyata keçirir. Departamentin əməkdaşları və digər resursları nəzərə alınmaqla zəng edilməli vergi ödəyiciləri üzrə prioritetin müəyyənləşdirilməsi bu Qaydalara və cari vergi siyasətinə uyğun olaraq Departament tərəfindən aparılan təhlillər əsasında aylıq olaraq Vergilər Nazirliyinin vergi risklərinə nəzarət üzrə müvafiq struktur vahid ilə razılaşdırılır.

1.5. Vergilər Nazirliyinin struktur vahidlərindən bu Qaydalara uyğun olaraq vergi ödəyicilərinin məlumatlandırılmasına dair müraciətlər vergi ödəyiciləri ilə daha az resurs tələb edən vasitələrlə (o cümlədən, onlayn kargüzarlıq, ümumi görüş) iş aparıldıqda və nəticəsi qənaətbəxş olmadıqda edilir.

1.6. Vergi ödəyicisinin Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən zəng edilməklə məlumatlandırılması onun digər xidmət kanalları vasitəsilə məlumatlandırılmasını istisna etmir.

1.7. Bu Qaydalarda istifadə olunan anlayışlar Vergi Məcəlləsində və "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"nda qəbul edilmiş mənada tətbiq edilir.

1.8. Danışıq zamanı vergi ödəyicisinin Vergilər Nazirliyinin səlahiyyətlərinə aid olan sualının təmsilçi tərəfindən cavablandırılması mümkün olmadıqda ona müraciət

vərəqəsinin tərtib edilməsi təklif edilir.

1.9. Vergi ödəyicisi ilə yalnız vergi orqanlarındakı uçot məlumat bazalarında olan telefon nömrəsi və ya Asan imza nömrəsi vasitəsi ilə əlaqə saxlanıla bilər.

1.10. Resursların səmərəli istifadə olunması, məlumatlandırılmaya daha çox ehtiyacı olan vergi ödəyicilərinin daha real müəyyən edilməsi məqsədi ilə vergi ödəyicilərinin vergi uçotuna alınmaq üçün müraciət etdiyi vaxt və ya digər vasitələrlə vergi ödəyicisindən bu Qaydalara uyğun məlumatlandırılma barədə fikirləri öyrənilə bilər.

1.11. Zəng ediləcək vergi ödəyicilərinin təmsilçilərin arasında bölüşdürülməsi və onlara bu Qaydaların 1.9-cu bəndinə uyğun olaraq zəng edilərək müvafiq təmsilçi ilə bağlantının yaradılması proqrama daxil edilmiş məlumatlar əsasında avtomatik həyata keçirilir. Proqram təminatı verilmiş funksiyalara uyğun olaraq vergi ödəyicisinə məlumat vermək üçün hazır (hazır olması gözlənilən) təmsilçi olduqda bağlantını yaradır. Siyahı üzrə vergi ödəyicilərinə təkrar zəng edilməsi tezliyi ay ərzində ümumi zəng edilməli vergi ödəyiciləri, onların prioritetləri və mövcud resurslar nəzərə alınmaqla Departament tərəfindən proqram təminatında verilmiş funksiyalar əsasında avtomatik həyata keçirilir. Vergi ödəyicisinə zəruri məlumatların operativ təqdim edilməsi üçün proqram təminatında zəng edilmiş vergi ödəyicilərinin bütün zəruri məlumatlarına bir pəncərədə baxmaq imkanı olmalıdır. Proqram təminatında vergi ödəyicilərinə zəng edilməklə yanaşı səsli və yazılı mesaj göndərmək funksiyaları da olmalıdır. Proqram təminatı Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə inteqrasiya olunmaqla Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əsas proqram təminatının (195 Çağrı Mərkəzi ) bir alt bölməsi olaraq yaradılır.

1.12. Departament vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə zəruri resurslarla təmin edilmək üçün Vergilər Nazirliyinin aidiyyəti struktur vahidlərinə müraciət edir.

1.13. Bu Qaydalara uyğun olaraq vergi ödəyicilərinin məlumatlandırılması zamanı onun həmin tarixə vergi borcu olduqda, vergi borcunun məbləği və borcun ödənilməyəcəyi təqdirdə qanunla müəyyən edilmiş tədbirlər və məhdudiyyətlər barədə məlumat verilir.

## 2. Zəng ediləcək vergi ödəyicilərinin müəyyənləşdirilməsi

2.1. Bu Qaydaların məqsədləri üçün məlumatlandırılması nəzərdə tutulan riskli vergi ödəyiciləri aşağıdakı kimi qruplaşdırılır:

2.1.1. Bəyannaməni vaxtında və ya düzgün təqdim etməyəcəyi ehtimal olunan vergi ödəyiciləri aşağıdakılardır:

1. Əvvəlki hesabat dövründə bəyannaməni təqdim etməmiş vergi ödəyiciləri.

2. Əvvəlki hesabat dövründə bəyannaməni gecikmə ilə təqdim etmiş vergi ödəyiciləri.

3. Son hesabat dövründə fəaliyyətini dayandırmış və bəyannamə təqdim etməli olan vergi ödəyiciləri.

4. Fiziki şəxsdən obyekt icarəyə götürmüş və əvvəlki hesabat dövründə müvafiq bəyannaməni təqdim etməmiş vergi ödəyiciləri.

5. Əvvəlki 2 hesabat dövründə bəyannaməsində eyni kod üzrə uyğunsuzluq aşkar edilmiş vergi ödəyiciləri.

6. Fəaliyyətini dayandırmış torpağı və (və ya) əmlakı olan vergi ödəyiciləri.

2.1.2. Ödənişləri vaxtında etməyəcəyi ehtimal olunan vergi ödəyiciləri aşağıdakılardır:

1. Qanunvericiliyə əsasən bəyannamənin təqdim edilmə müddəti ilə verginin ödənilmə

müddəti fərqli olduğu hallar üzrə əvvəlki hesabat dövründə vergini vaxtında ödəməmiş vergi ödəyiciləri.

2. Əvvəlki 2 hesabat dövrü üzrə vergilərini vaxtında ödəməmiş vergi ödəyiciləri.

2.1.3. Vergi Məcəlləsinə əsasən ödəyicisi olduğu vergi növlərində uyğunsuzluqlar olan vergi ödəyiciləri;

2.1.4. Yeni vergi uçotuna alınan vergi ödəyiciləri;

2.1.5. Əsaslandırılmış təhlillər əsasında risk aşkarlanan digər vergi ödəyiciləri .

2.2. Zərurət yarandıqda Vergilər Nazirliyinin struktur vahidləri bu Qaydalarla müəyyən edilmiş risk meyarları (bu Qaydaların 2.1.4-cü yarımbəndi istisna olmaqla) nəzərə alınmaqla növbəti ay ərzində Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən məlumatlandırılması zəruri hesab edilən vergi ödəyiciləri barədə cari ayın 20-dək Departamentə müraciət edirlər. Müraciətdə məlumatlandırılması təklif olunan vergi ödəyicilərinin konkret siyahısı və siyahı üzrə hər bir vergi ödəyicisinin aid olduğu risk qrupu, vergi ödəyicisinə çatdırılmalı məlumatın qısa məzmunu (qanunvericiliyə istinad göstərilməklə), məlumatın aktual olduğu dövr, həmin vergi ödəyiciləri ilə digər xidmət kanalları vasitəsilə aparılmış işlər (konkret göstərilməklə) və onların nəticələri barədə məlumat əks olunmalıdır.

2.3. Departament tərəfindən bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulan müddət gözlənilmədən sərbəst olaraq təhlillər aparılaraq müəyyən edilmiş risk meyarları nəzərə alınmaqla məlumatlandırılacaq vergi ödəyiciləri barədə siyahılar hazırlana bilər.

2.4. Departament daxil olmuş sifarişlər və aparılmış təhlillər əsasında Vergilər Nazirliyinin Çağrı Mərkəzinin mövcud resurslarını (xüsusilə təmsilçilərin sayını) nəzərə almaqla hər ayın sonunadək növbəti ayda zəng edilməklə məlumatlandırılacaq vergi ödəyicilərinin siyahısını Vergilər Nazirliyinin rəhbərliyi ilə razılaşdırmaqla təmsilçilər arasında bölüşdürülməsini həyata keçirir. Bu zaman mesaj xidməti vasitəsi ilə məlumatlandırılması mümkün olan (səmərəli ola biləcək) vergi ödəyiciləri (o cümlədən vergi borcu barədə məlumatlandırılmalı vergi ödəyiciləri) bu vasitə ilə məlumatlandırılır.

## 3. Vergi ödəyicilərinin mesaj xidməti vasitəsilə məlumatlandırılması

3.1. Mesaj xidməti proqram təminatı vasitəsilə kütləvi və ünvanlı şəkildə vergi ödəyicilərinin məlumatlandırılması üçün onların telefon nömrələrinə zəng etməklə hazır səs yazısının səsləndirilməsi və ya onların mobil nömrələrinə yazılı mətnlərin göndərilməsidir.

3.2. Vergilər Nazirliyi sistemində vergi ödəyicilərinin telefonlarına kütləvi olaraq məlumatların (mesajların) göndərilməsi Departament tərəfindən funksional fəaliyyət sahələri nəzərə alınmaqla Vergilər Nazirliyinin struktur vahidlərinin müraciəti və ya Çağrı Mərkəzinin apardığı təhlillər əsasında həyata keçirilir. Müraciətdə məlumatlandırılması təklif olunan vergi ödəyicilərinin konkret siyahısı və siyahı üzrə hər bir vergi ödəyicisinin aid olduğu risk qrupu, vergi ödəyicisinə çatdırılmalı məlumatın qısa məzmunu, məlumatın aktual olduğu dövr əks olunmalıdır.

3.3. Daxil olmuş müraciətlər və aparılmış təhlillər əsasında Departament mövcud resursları (kontur balansını, aktiv xətt sayını, proqramın iş gücünü) və göndərilən mesajlara uyğun daxil olan zənglərin intensivliyini nəzərə alaraq vergi ödəyicilərinin mesaj xidməti vasitəsilə məlumatlandırmasını aktual olduğu müddətdə mərkəzləşdirilmiş qaydada ay ərzində həyata keçirir.

## 4. Vergi ödəyicilərinin zəng edilməklə məlumatlandırılması

4.1. Bəyannaməni vaxtında və ya düzgün təqdim etməyəcəyi ehtimal olunan vergi ödəyicilərinin məlumatlandırılması aşağıdakı kimidir:

4.1.1. Bu Qaydaların tələblərinə uyğun olaraq bəyannaməni vaxtında və ya düzgün təqdim etməyəcəyi ehtimal olunan vergi ödəyicilərinə bəyannamənin təqdim edilməsinin son gününədək zəng edilməklə məlumat verilir;

4.1.2. Resurslara qənaət və bəyannamə təqdim etmiş vergi ödəyicilərinə lüzumsuz zəng edilməməsi üçün siyahı gündəlik yenilənməli və tədiyə növünə görə qruplaşdırılaraq təmsilçilər arasında bölüşdürülməlidir;

4.1.3. Təmsilçi danışıq zamanı "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"na əməl etməklə vergi ödəyicisinə təqdim edilməli bəyannamə, onun nə vaxtadək və necə təqdim edilməli olduğu barədə, habelə buna dair qanunvericilikdə müəyyən edilmiş tədbirlər barədə məlumat verməlidir.

4.2. Ödənişləri vaxtında etməyəcəyi ehtimal olunan vergi ödəyicilərinin məlumatlandırılması aşağıdakı kimidir:

4.2.1. Bu Qaydaların tələblərinə uyğun olaraq ödənişləri vaxtında etməyəcəyi ehtimal olunan vergi ödəyicilərinə hesablamanın qanunvericiliklə müəyyən edilmiş ödənilmə müddəti bitənədək zəng edilməklə məlumat verilir;

4.2.2. Təmsilçi danışıq zamanı "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"na əməl etməklə vergi ödəyicisinə etməli olduğu ödənişlər, onun nə vaxtadək və necə həyata keçirilməli olduğu barədə, habelə buna dair qanunvericilikdə müəyyən edilmiş tədbirlər barədə məlumat verməlidir.

4.3. Vergi Məcəlləsinə əsasən ödəyicisi olduğu vergi növlərində uyğunsuzluqlar olan vergi ödəyicilərinin məlumatlandırılması aşağıdakı kimidir:

4.3.1. Bu Qaydaların tələblərinə uyğun olaraq ödəyicisi olduğu vergi növlərində uyğunsuzluqlar olan vergi ödəyicilərinə bu uyğunsuzluqların aradan qaldırılması məqsədi ilə bəyannamə təqdim edilmə müddətinədək zəng edilməklə məlumat verilir;

4.3.2. Təmsilçi danışıq zamanı "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"na əməl etməklə vergi ödəyicisinə uyğunsuzluqları izah etməli, uyğunsuzluğun aradan qaldırılması yolları və habelə buna dair qanunvericilikdə müəyyən edilmiş tədbirlər barədə məlumat verməlidir.

4.4. Yeni vergi uçotuna alınan vergi ödəyicilərinin məlumatlandırılması aşağıdakı kimdir:

4.4.1. Yeni vergi uçotuna alınan vergi ödəyicilərinin məlumatlandırılması onların vergi uçotuna alındığı tarixdən sonrakı ay ərzində aparılır;

4.4.2. Həmin vergi ödəyicilərinə ilk hesabat dövrü üzrə hesabatların təqdim edilməsi və ödənişlərin aparılması üzrə əlavə metodiki köməklik də göstərilə bilər;

4.4.3. Təmsilçi danışıq zamanı "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"na əməl etməklə vergi ödəyicisinə onun qeydiyyat məlumatlarına əsasən Vergi Məcəlləsi və digər aidiyyəti hüquqi aktlara uyğun olaraq hüquq və vəzifələrini ümumi izah etməlidir.

4.5. Vergi ödəyicisinə ay ərzində bir neçə risk qrupu üzrə məlumatın çatdırılması nəzərdə tutulduqda ona bir zəng zamanı bütün məlumatlar təqdim edilir.

4.6. Bu Qaydalara uyğun olaraq vergi ödəyicisinin kommersiya sirri təşkil edən məlumatlardan istifadə etməklə (o cümlədən bu Qaydaların 2.1.1-ci yarımbəndinin 5-ci abzası və 2.1.3-cü yarımbəndi üzrə) məlumatlandırılmasına zərurət yarandıqda Asan imzanın imkanlarından istifadə etməklə kimliyin müəyyənləşdirilməsi təklif olunur. Bu mümkün olmadıqda ümumi məlumat təqdim edilərək ətraflı məlumat əldə olunması üçün ərazi prinsipi nəzərə alınmadan istənilən xidmət mərkəzinə müraciət edilməsi tövsiyə olunur.

## 5. Yekun müddəalar

Dövlət vergi orqanlarının əməkdaşları bu Qaydaların tələblərinin yerinə yetirilməməsinə görə qanunvericiliklə nəzərdə tutulmuş qaydada intizam məsuliyyət daşıyırlar.